# General Polad Həşimov haqqında xatirələr kitabı nəşr olundu

"General Polad Həşimov xatirələrdə" kitabı "Hədəf Nəşrləri"nin "Xatirə ədəbiyyatı" silsiləsində işıq üzü görüb.

Nəşriyyatdan aldığımız məlumata görə, 268 səhifəlik sözügedən kitab 14 iyul tarixində Tovuz istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Azərbaycan ordusunun general-mayoru Polad Həşimova həsr olunub. Kitabda ailə üzvlərinin, cəbhə yoldaşları və əsgərlərinin, müxtəlif peşə sahiblərinin Polad Həşimovla bağlı xatirələri yer alıb. Kitabın 60 səhifəsini əhatə edən "Polad Həşimov fotolarda" bölməsində mərhum generalın uşaqlıq illərindən tutmuş həyatının müxtəlif anlarında çəkilmiş şəkillər verilib. "General Polad Həşimov xatirələrdə" - general-mayor Polad Həşimova həsr olunmuş ilk dolğun kitabdır.

"Hədəf Nəşrləri" sözügedən kitabın ilk nəşrini hədiyyə verəcəyini də açıqlayıb. Bu barədə nəşriyyatın təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Şəmil Sadiq açıqlamasında deyib:

"General Polad Həşimov xatirələrdə" kitabı mənim və "Hədəf Nəşrləri" komandasının mənəvi narahatlığının nəticəsində ərsəyə gəldi. Belə ki, məlum Tovuz hadisələrində hamı kimi biz də daxili narahatlıq keçirdik və iyul şəhidlərimiz qarşısında mənəvi borcumuzu qismən də olsa, ödəmək üçün bu layihəni həyata keçirmək qərarına gəldik. Bu layihə üzərində işləyərkən fərqli yerlərdən dəstək nümayiş etdirənlər çox oldu. Hamımızın vətəni olan Azərbaycanın mərd oğ-




luna bu cür yanaşma, doğrusu, bizi qürurlandırdı və bu prosesdə tək olmadığımızı anladıq. Mən həm öz şəxsim, həm də "Hədəf Nəşrləri" adından "Halal" firmasına, könüllü dəstək verən dostlarımıza minnətdarlığımı bildirirəm. Eyni zamanda bütün işləri çox peşəkarlıqla yerinə yetirən "Hədəf Nəşrləri" komandasına təşəkkür edirəm. Sözügedən layihəni uğurla başa çatdırmaq üçün kitabın 2000 tirajlıq ilk nəşrini ictimaiyyətə hədiyyə edəcəyik".

"Hədəf Nəşrləri"nin direktoru Səbuhi Şahmursoy isə bildirib ki, hədiyyə siyahısını müzakirə edərkən kitabın maksimum əhatəli auditoriyaya çatması məsələsini diqqətdə saxladıq:

"Kitabın tərtibat mərhələsinə başladığımız elanından sonra bizə müxtəlif qurum və şəxslərdən çoxsaylı müraciətlər daxil oldu. Biz bunları nəzərə almağa çalışdıq, amma bu müraciətlər nəzərdə tutduğumuz tiraj sayından dəfələrcə çoxdur. Əvvəlcədən söz verdiyimiz kimi, bu kitabı ilk olaraq generalın Anası Səmayə Həşimovaya hədiyyə etdik. Bu layihə üçün yaratdığımız komissiya daxilində aparılan müzakirələrin nəticəsi olaraq hədiyyə siyahısı aşağıdakı kimi qərarlaşdı:

Azərbaycan Respublikası Təhsil Nazirliyi - 150 ədəd

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi - 100 ədəd

Azərbaycan Respublikası Müdafiə Nazirliyi - 100 ədəd

Universitet kitabxanaları və digər kitabxanalar - 150 ədəd

Xaricdəki diaspor təşkilatları - 50 ədəd

İctimai-siyasi şəxslər - 150 ədəd

Siravi oxucular (kitabevim.az mağazası vasitəsilə) - 500 ədəd

Təşkilatçı, dəstəkçi və məqalə sahiblərinə - 200 ədəd

Mətbuat orqanlarına - 50 ədəd

"Hədəf Şirkətlər Qrupu"nun müəllim heyəti və digər personalına - 200 ədəd

Polad Həşimovun qırx mərasimi tədbirinə - 350 ədəd.

Biz əsasən rəsmi qurumlarla bu məsələdə əlaqə saxlamağa çalışacağıq, amma onlar da təyin olunmuş hədiyyələrini götürmək üçün bizimlə əlaqə saxlaya bilərlər. Siravi oxucular isə siyahıda göstərdiyimiz kimi, kitabevim.az mağazasının 28 may filialına yaxınlaşaraq bu kitabı pulsuz əldə edə bilərlər".

Kaspi 2020.- 29-31 avqust.-S.7.